Hamı gərək Vətən! – desin...

“Bu gün gərək hər anımız Vətən! – desin.
Qılıncımız, qalxanımız Vətən! – desin.
Ölənlərin əvəzinə, qalanımız Vətən! – desin”.

Xalq şairi Məmməd Arazın bu poetik çağırışı bir qərinədən bəri xalqımızın qanı axan yarasına çevrilmiş Dağlıq Qarabağ münaqişəsi başlanandan Vətən və vətəndaşlıq barədə duyğu-düşüncələrimizin önündə gəlir, xalqımızın vətənsevərlik anlayışında bədii dilmanclıq edir. Vətən Yer üzündə hər bir xalqın əzəli-əbədi mövcudluq məkanı, ali mənəvi dəyəridir. Hər bir insanı dünyaya gətirən Ana nə qədər uca tutulursa, Ananın da anası sayılan Vətən torpağı “Ana vətən” – deyə öyülür.

Tarixən, Ana vətənə övladlıq edə bilməyənlər, dar gündə onu qorumayanlar vətənsiz qalaraq yad-yağmaçılara qul olublar, əriyib heçliyə qarışıblar. Azərbaycan xalqı min illərdən bəri vətənini sevən və qoruyan, bu gün də onun üstündə mövcudluğunu davam etdirən qadir insan toplumlarındandır. Odur ki, hazırda 50 milyonluq dünya azərbaycanlılarının əksəriyyəti öz tarixi vətənində məskundur. Çağdaş dünyada samballı çəki yaradan bu toplumun 10 milyonluq hissəsi tarixi vətəninin quzeyində öz müstəqil dövlətinə sahibdir. Azərbaycan Respublikasının hər bir övladı bu dövlətin vətəndaşı olaraq əsrlərdən bəri qanlar-qovğalar bahasına onlara miras qalmış bu torpağı sevməli, ona xidmət etməli və Vətən müqəddəs əmanət kimi qorumalıdır.

Ensiklopedik mənbələrdə göstərilir ki, vətənsevərlik mahiyyəti vətənə məhəbbət və öz şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılıq mənsub olduğun toplumun etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürür kimi də mənalandırılır. Burada vətəninin xarakterini və mədəni incilərini yaşatmaq və özünü bu dəyərlərlə tanımaq, öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir. Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş, öz doğma torpağına, dilinə və adət-ənənələrinə bağlanmış dövlətçilik durur. Millətin və dövlətçiliyin formalaşması şəraitində vətənpərvərlik onun inkişafının ümummilli miqyasını əks etdirən ictimai düşüncənin tərkib hissəsinə çevrilir.

Göründüyü kimi, vətən və vətəndaşlıq anlayışlarının cazibə mərkəzi vətən sevgisi duyğusudur. Vətən sevgisi olmayanın vətənə bağlılığı da olmur. Az da olsa, günü xoş keçən yeri vətən sayanlar özlərini ən ağır cəzaya-- mənəvi ölümə məhkum edirlər. Vətən sevgisi ana südü, ana laylası, doğma olan hər bir şeyin yaratdığı duyğu-düşüncələrlə insanın qanına-ruhuna hopur, həyatda onun ən üstün dəyərinə çevrilir. Beləcə, vətən hər şeydən üstün olduğuna, hər şey də onun üstündə qərarlaşdığına görə eyni səy-köklü insanlar o yerdən qopub ayrılmırlar. Xalq hikmətində deyildiyi kimi, qürbət cənnətə dönsə də, yenə Vətən ondan üstün sayılır. Vətəni sevmək və qorumaq ictimai amala çevrilmirsə, həmin diyar və onun xalqı əriyib yox olmağa məhkumdur. Zaman-zaman vətən sevgisi bu axarda vətəndə yaşayıb, vətəni yaşatmağın əbədiyəşarlıq iksirinə çevrilib.

Zaman da olub ki, Vətəndə hökm etmək ixtiyarı yadların əlinə keçdiyindən onu qorumaq duyğusu, az da olsa, korşalıb. Rus imperiyasının Quzey Azərbaycanı işğalı dövründə vətənə sahibliyini tamamilə itirmiş soydaşlarımızın “məktəbə getməyi” “əsgər getmək” anlamında başa düşməsinin, “uşqol gedən balam vay, saldat gedən balam vay” – deyib uşaqlarını gərmə qalağında gizlətməsinin böyük ədibimiz Cəlil Məmmədquluzadənin “Danabaş kəndinin məktəbi” pyesində əksini tapmış faciəsinin kökləri də bu həssas məqama gedib çıxırdı. Sovet zamanında da vətən anlayışı hüdudları SSRİ miqyasında həddən artıq böyüdülüb mücərrədləşdirildiyindən azərbaycanlı gənclər orduya həvəslə getmir, hərb işinə az maraq göstərirdilər. Bu bəlanı görüb onu aradan qaldırmaq üçün ümummilli lider Heydər Əliyevin ötən əsrin 70--80-ci illərində gerçəkləşdirdiyi əsaslı tədbirləri xatırlamaq kifayətdir.

Ermənistanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycana təcavüzü isə xalqımızın vətənlə bağlı düşüncələrindəki zədələnmiş məqamları aşkar etməklə yanaşı, təbii-instikiv vətən sevgisini də kütləvi surətdə alovlandırdı. Düşmənin xəyanət və təcavüzü yatmışları da ayıldıb ayağa qaldırdı, cərgəyə qoşdu. 30 ildən artıqdır ki, xalqımızın vərənsevərliyi yüksək həddə çataraq torpağı silahla qorumaq--hərbi vətənpərvərlik səviyyəsinə yüksəlib. Qarabağ uğrunda mübarizədə milyardlarla maddi itki ilə üzləşən Azərbaycan xalqı 20 mindən artıq da şəhid verib. Ölkəmizdə vətənsevərlik onu könüllü qorumaq, hətta uğrunda qurban getməyə hazır olmaq qədər ali dəyər qazanıb. Belə yurdsevər gənclərdən təşkil olunmuş Azərbaycan Ordusu artıq Qafqazın ən qüdrətli, dünyanın isə 50 güclü silahlı qüvvəsi sırasındadır.

Zabit-yazar Məhəmməd Nəsirli gənclərin hərbi vətənpərvərlik tərbiyəsi ilə bağlı bildirdi:

–Vətənpərvərlik hamımız üçün ən ülvi hissdir, doğma yurda olan sonsuz sevgimizdir, el-obaya bağlılığımızdır. Vətənə olan borcunu ödəməkdir vətənpərvərlik. Bu duyğu təkcə sözdə deyil, əməldə də olmalıdır. Vətənpərvərlik həm də ilahi bir sevgidir. Belə sevgi hər kəsə nəsib olmur. Mübariz, Fərid, Murad, Samid, Çingiz, Polad kimi oğullarımız canlarını Vətən yolunda qurban verdilər. Deməli, əsl vətənpərvər insan ölümün gözünə dik baxandır. Şəhidlər xiyabanında gecə-gündüz alovlanan məşəl də vətənpərvərliyə bir çağırışdır.

Bir vaxtlar mənə dərs demiş zabitin bir sözü yadıma düşür. O, “Vətən üçün nə edə bilərsiniz?” – sualını verəndə hamımız bir ağızdan “Vətən üçün canımızdan keçməyə hazırıq”-- dedik. Müəllim gülümsündü və sonra “Vətənə sizin ölümünüz yox, düşmənin ölümü lazımdır. Axı siz ölsəniz Vətəni kim qoruyacaq?”-- dedi. İndi bu sözlər yadıma düşəndə anlayıram ki, bu gün ordumuzda xidmət edən hər kəs düşməni məhv etmək arzusu ilə yaşayır. Vətən müqəddəsdir, and yerimizdir. Biz zabitlər həyatımızın son anına qədər Vətən üçün yaşayacağıq. Ana Vətənimiz Azərbaycanın işğal altında olan torpaqlarını azad etmək üçün qanımızı və canımızı heç vaxt əsirgəməyəcəyik. Bizlər üçün örnək olan ümummilli liderimiz Heydər Əliyev də ömrünü məhz xalqı üçün yaşadı. Ulu öndərin bir sözünü həmişə özümüzə deviz seçmişik: “Doğma canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır”.

Ulu öndərin dediyi “Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir”-- sözləri isə bizim üçün Vətənə xidmət kampasıdır. Müasir Azərbaycan Ordusunun qurucusu Heydər Əliyev gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsi işinə ciddi diqqət yetirərək “Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır” demişdir. Zabit peşəsi, doğrudan da, ən müqəddəs və vacib peşələrdən biridir. Bu peşənin sahibləri Vətən qoruyucularıdırlar. Son illərdə peşə seçimi zamanı gənclərin böyük qisminin hərbçi peşəsinə yiylənmək arzusunda olması da olduqca qürurvericidir.

Cəmiyyətimizdə orduya rəğbət, sevgi yüksəkdir. Bu o deməkdir ki, ailələrdə, məktəblərdə hərbi vətənpərvərliyin təbliği düzgün təşkil edilir. Ölkə səviyyəsində orduya göstərilən yüksək diqqət və qayğı isə Prezident İlham Əliyevin ulu öndərin ordu quruculuğu kursunu layiqincə davam etdirməsinin bariz nümunəsidir. Vətənin gələcək sahibi olacaq yeni nəslin vətənpərvərlik tərbiyəsi uşaqlıqdan ailədə, sonra isə məktəbdə formalaşdırılır, orduda isə əməli iş səviyyəsinə yüksəlir. Torpaqlarımızın 20 faizinin işğalda olduğu bir vaxtda orta məktəblərdə Vətən sevgisi, torpağı qorumaq anlayışı yaratmaq tərbiyə işinin əsasını təşkil etməlidir.

Zəngilan rayonundan məcburi köçkün, tarix müəllimi Musa Quliyev orta məktəblərdə vətənpərvərlik tərbiyəsinin düzgün qurulmasının vacibliyini söylədi:

–Tarix əsrlər boyu Azərbaycana vətənpərvər övladlar bəxş etmişdir. Onlar adi adamlardır, təcrübəli sərkərdələrdir, müdrik siyasətçilərdir, uzaqgörən dövlət xadimləridir. Bu gün Azərbaycan müstəqildir. Azərbaycan dövləti dünyanın sayılıb-seçilən dövlətlərindən biridir. Bu dövlətin vətənpərvər övladları istər Vətəndə, istərsə də kənarda boya-başa çatdıqları torpağın, mənsub olduqları xalqın şərəfini ləyaqətlə qoruyurlar. Hər bir vətənpərvər insan Azərbaycan adını uca tutur, bu torpağa hörmət gətirən xeyirxah əməllərlə məşğul olmağa çalışır.

Orta məktəblərdə müəllimlərimiz şagirdlərə onu çatdırmalıdırlar ki, Vətəni sevmək ali duyğu olduğu kimi, onu qorumaq, işğal altında olan torpaqlarımızı düşməndən azad etmək də o qədər müqəddəs bir borcdur. Şəhidlik isə vətənpərvərliyin ən uca zirvəsidir. Son ana qədər erməni cəlladlarının işgəncələrinə tab gətirərək düşmənə boyun əyməyən yüzlərlə şəhidimiz var. Biz onların vətənpərvərliyi ilə fəxr edirik.

Gələcəyimiz olan şagirdlərimizə, gənclərimizə onu da çatdırırıq ki, ki, gec-tez torpaqlarımız işğaldan azad ediləcək, doğma torpaqlarından məcburi köçkün düşən vətəndaşlarımız doğma yurdlarına qayıdacaqlar. Biz inanırıq ki, bütün bunlar Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə güclü, qüdrətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində tezliklə mümkün olacaq.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Təşkilatının təmsilçisi Mirməcid Seyidov isə Vətən sevgisinin ölkəmizin etibarlı müdafiəsi işinə yönəldilməsində vətəndaş cəmiyyyəti qurumlarının rolu ilə bağlı mülahizələrini belə açıqladı:

--Tariximizin hansı səhifəsini vərəqləsək, orada igid babalarımızın keçdiyi qəhrəmanlıq yollarının izinə rast gələrik. Çünki yaşadığımız torpağı qorumaq üçün Vətən uğrunda mübarizə əsas şərtdir. Məhz bu amil vətənpərvərliyi şərtləndirir. Əsl vətənpərvər isə Vətənə məhəbbətini sözdə deyil, gördüyü işdə, çəkdiyi zəhmətdə, fəaliyyətində nümayiş etdirir. Məhz buna görə də vətənpərvərliyin meyarı söz ilə əməlin üst-üstə düşməsidir.

Ümummilli liderimiz Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik ideyaları bugünkü inkişafımızın təməlini təşkil edir. Ulu öndərin müəyyən etdiyi milli şüur – vətənpərvərlik şüuru siyasi yanaşması xalqımızın vətənpərvərlik tərbiyəsində əvəzsiz nümunəyə çevrilib, vətəndaşlarımıza Vətən sevgisi aşılayıb. Dahi şəxsiyyətin fikrincə, Vətən yalnız coğrafi ərazi deyil, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının şan-şöhrəti, qeyrəti, əyilməz vüqarı, qürur mənbəyi, gücü, əbədi səcdəgahıdır. Bugünkü müstəqil, çiçəklənən Azərbaycan bütün varlığını, ömrünü, zəkasını öz xalqına, millətinə həsr etmiş ulu öndərimiz Heydər Əliyevin bizə ən müqəddəs, ən ülvi əmanəti, yadigarıdır.

Özünü ölkəsinin əsl vətəndaşı hesab edən hər bir ləyaqətli, iradəli, əqidəli, vətənpərvər gənc millətin adı və varlığı ilə fəxr edir, onda milli xarakter və milli mənəviyyat formalaşır. Çünki milli mənlikdə milli ideal, milli ləyaqət, milli şərəf, milli birlik hissi, azadlıq, müstəqillik arzuları, milli qürur hissi təcəssüm olunur. Milli mənlik hər bir şəxsin özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs Vətənlə bağlı heç bir hadisəyə laqeyd qala bilməz. Ona görə də Vətən, torpaq məhəbbəti, xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün çalışmağa sövq edir.

Vətənpərvərlik insanın öz Vətəninə sevgi və sədaqətindən, doğma Vətənin siyasi, iqtisadi və mədəni tərəqqisi naminə çalışmaqdan və onun müdafiəsinə hər an hazır olmaqdan ibarətdir. Doğma yurda sədaqət həm də mövcud çətinliklərdən qorxmayıb vətəndaşlıq mətanəti göstərmək deməkdir. Xalqımızın qədim dastanı “Kitabi-Dədə Qorqud”da yadellilərin hücumu və xalqın öz yurdunu düşmənlərdən qoruması təsvir edilir. Bu dastanın bütün boyları vətənpərvərlik hissini yüksək səviyyədə təcəssüm etdirir. “Koroğlu”, “Şah İsmayıl”, “Qaçaq Nəbi” kimi xalq dastanlarında da vətənpərvərlik duyğuları əsas yer tutur.

Vətənpərvərlik bütün dövrlərdə yazıçı və şairlərimizin də yaradıcılığının aparıcı qüvvəsinə çevrilib. M.F.Axundovun, H.Zərdabinin, S.Ə.Şirvaninin Vətən sevgisi mücərrəd olmayıb, əməli işlə bağlıdır. M.F.Axundov yeni əlifbanın qəbul edilməsi uğrunda on illərlə mübarizə apararkən, H.Zərdabi ehtiyac içərisində yaşadığı halda, Azərbaycan dilində ilk qəzeti nəşr edərkən və ya S.Ə.Şirvani, M.T.Sidqi xalqın balaları üçün pulsuz məktəb açarkən yalnız vətənini, soydaşlarının mənafeyini düşünüblər. Bütün bu həqiqətlərin yeni nəsillərə çatdırılmasında vətəndaş cəmiyyəti qurumlarının üzərinə şərəfli vəzifə düşür.

Müsahiblərimizin mülahizələrinə əlavə olaraq bildirək ki, hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən, milli ruhundan və digər amillərdən asılıdır. Azərbaycan gəncliyi bütün dövrlərdə ölkənin taleyüklü məsələlərinə münasibətin həlledici məqamlarda öz sözünü deyib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra gənc nəslin üzərinə daha böyük məsuliyyət düşüb. Müstəqilliyin əldə edilməsində olduğu kimi, onun qorunub saxlanmasında da gənclərin rolu danılmazdır. Gənc nəsil həm də xalqın əsrlər boyu yaratdığı ənənələri, milli mədəniyyəti yaşadır və gələcək nəsillərə ötürür. Onlar dövlətin həm bu günü, həm də gələcəyidir.

Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, onlara göstərilən diqqət və qayğının əsasında ölkə üçün layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır. Müstəqilliyin üçüncü onilliyini yaşayan Azərbaycana məhz milli şüura yiyələnmiş vətənpərvər gənclər lazımdır. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amala xidmət edir. Ulu öndər müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin yetişdirilməsini dəfələrlə qürur hissi ilə vurğulayaraq demişdir: “Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var”.

Bütün bu deyilənlər bir daha təsdiqləyir ki, vətənpərvərlik öz xalqını, vətənini və dövlətini sevmək deməkdir. Amma bu, “mənim dövlətimin başqaları önündə müstəsna olması, ali olması” demək deyil. Bu cür düşüncə artıq ksenofobiya, etnik, dini, milli və dövlət şovinizmi kimi təhlükəli amili yaradır. Mütəxəssislər bildirirlər ki, ən yaxın tariximizdə alman faşizmi, hazırda isə erməni millətçi faşizmi özünü “xüsusi” olaraq görməyin bəşəriyyətə nə qədər təhlükə gətirdiyinin əyani nümayişidir. Dini müstəsnalıq, “xaç yürüşləri” və hazırda isə İslamın bütün dinlərdən üstün olması kimi iddialar dünyaya “Əl Qaidə”, daha sonra “İŞİD” kimi bəlalar gətirdi.

İctimai-siyasi fenomen baxımından vətənpərvərliyin dövlət vətənpərvərliyi, vətəndaş vətənpərvərliyi, fərdi vətənpərvərlik kimi açıqlaması da var. Dövlət vətənpərvərliyi hər bir dövlətin quruculuğun və idrəçiliyin bütün sahələrini əhatə edən siyasətidir. Vətəndaş vətənpərvərliyi isə insanların ümumi Vətən uğrunda müəyyən əqidə ətraflnda cəm olması, dövlətin kim tərəfindən idarə olunmasından asılı olmayaraq vətənində hər bir ictimai, sosial, siyasi, təbii hadisələrdə həmrəy olmasıdır.

Vətəndaş vətənpərvərliyi Qarabağ savaşının qızğın dövründə, sonra isə 2016-cı ilin Aprel və 2020-ci ilin İyul döyüşlərində (vətəndaşlar dövlətinin yanında idi, könüllü olaraq cəbhə bölgəsinə getmək istəyənlər saysız-hesabsız idi) vətəndaşların orduya və dövlətə dəstək olması, düşmənə qalib gəlmək üçün nəsə etmək əzmində olması ilə yüksək səviyyədə təzahür etdi. Fərdi vətənpərvərlik isə cəmiyyətin hər hansı bir üzvünün öz bacardığl sahədə ictimai və dövlət dəstəyini gözləmədən öz imkanları ilə fəaliyyət göstərməsidir.

Sonda istiqlal şairi Məmməd Arazın əvvəldə xatırladığımız poetik çağırışının davamını xatırlamamaq mümkün deyil:

“Əgər varsa zərrə qədər imanımız,
İmanımız Vətən! – desin.
Hər yaxşımız, yamanımız Vətən! – desin.
Qoca millət, bu gün gərək hər
anımız Vətən! – desin”.

Tahir AYDINOĞLU,
“Xalq qəzeti”